**AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ**

AZ 1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi 26 Tel.: (+994 12) 489-07-07 Faks: (+994 12) 498-72-69 Veb: www.supremecourt.gov.az Elektron poçt: contact@supremecourt.gov.az

**24 iyul 2026-cı il** **1-8-11-2/2-6129/2026**

**Azərbaycan Respublikasının rayon (şəhər), ağır cinayətlər, hərbi və apellyasiya məhkəmələrinə**

# İ C M A L

(*cinayət işi üzrə icraat çərçivəsində əmlak üzərinə həbsin qoyulması ilə əlaqədar təcrübədə yaranan bəzi hüquqi məsələlərə dair*)

**I.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsi (bundan sonra – Publik Hüquqi Şəxs) Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edərək xüsusi müsadirə və mülki iddia ilə bağlı olan bəzi məsələlər üzrə hüquq tətbiqetmə təcrübəsinin vahidliyini təmin etmək üçün izahların verilməsini xahiş etmişdir.

Müraciətin məzmununa görə izahın verilməsinin zəruriliyi ondan irəli gəlir ki, bəzi hallarda məhkəmələr cinayət işləri üzrə məhkəməyədək icraat zamanı əmlak üzərinə həbs qoyulması barədə müraciətlərə baxılması nəticəsində qəbul etdikləri qərarlarda əmlak üzərinə həbs qoyma müddətini konkret təqvim dövrünü (1 ay, 6 ay və sair) göstərməklə müəyyən edir, bəzi hallarda belə müddəti göstərmir, yaxud müddəti xüsusi müsadirə və ya mülki iddia ilə bağlı məsələlərə məhkəmə tərəfindən mahiyyəti üzrə baxıldığı (bu məsələlər üzrə məhkəmə hökmünün çıxarıldığı) və ya hökmün (digər yekun qərarın) qüvvəyə mindiyi tarixədək müəyyən edirlər.

Bu səbəbdən müraciətdə əmlak üzərinə həbs qoyulması barədə məsələlərə baxılarkən əmlakın üzərinə qoyulan həbs müddətinin konkret təqvim müddəti ilə göstərilməli və ya başqa şəkildə müəyyən edilməli olması barədə sualın cavablandırılmasının hüquq tətbiqetmə təcrübəsi üçün əhəmiyyətli olduğu vurğulanır.

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/XBLZkn5bsxGl9BXbiCdaTpXh3oHiRsvg%2FslvDxZYJJo%3D

Publik Hüquqi Şəxsin müraciətində qaldırılan ikinci məsələ ilə əlaqədar qeyd olunur ki, cinayət işi üzrə icraat çərçivəsində üzərinə həbs qoyulmuş əmlak barədə məhkəmə hökmü ilə xüsusi müsadirə tətbiq edildikdən və ya mülki iddianın təmin edilməsi üçün icra tədbirləri həyata keçirildikdən, yəni müvafiq məhkəmə hökmləri icra olunduqdan sonra məhkəmələr bəzi hallarda maraqlı şəxslərin müraciətləri əsasında əmlakın həbsdən azad edilməsi barədə qərar qəbul edir, digər hallarda isə hökm icra edildikdən sonra əmlak üzərinə qoyulmuş həbsin avtomatik olaraq qüvvədən düşməsinə istinad edərək belə müraciətləri icraatlarına qəbul etməkdən imtina edirlər.

Bununla əlaqədar müraciətdə sual qoyulur ki, üzərinə həbs qoyulmuş əmlakın xüsusi müsadirəsi və ya üzərinə həbs qoyulmuş əmlak barədə mülki iddianın təmin edilməsinə dair məhkəmə hökmündən irəli gələn tədbirlər həyata keçirildikdən, yəni hökmün xüsusi müsadirəyə və mülki iddiaya dair hissələri icra edildikdən sonra həmin əmlakın həbsdən azad edilməsi barədə ayrıca qərarın çıxarılması zəruridirmi?

**II.** Müraciətdə qaldırılan məsələlərlə əlaqədar aşağıdakı izahların verilməsi məqsədəuyğun hesab edilir:

**1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 248.1-ci maddəsi ilə əmlak üzərinə həbsin qoyulması mülki iddianı və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda xüsusi müsadirəni təmin etmək məqsədi ilə tətbiq edilən istintaq hərəkəti (digər prosessual məcburiyyət tədbiri) kimi müəyyən edilmişdir.

Əmlak üzərinə həbsin qoyulmasının mülki iddianı və xüsusi müsadirəni təmin edən tədbir (prosessual təminat tədbiri) olaraq müəyyən edilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – CM) və CPM-in əsas müddəalarından irəli gəlir.

Belə ki, CM-in 99-1.2-ci maddəsinə əsasən məhkəmə hər bir cinayət işi üzrə bu Məcəllənin 99-1.1-ci maddələrində nəzərdə tutulmuş müsadirə edilməli əmlakın olub-olmaması məsələsini həll edir.

CPM-in 38.3-cü maddəsinə əsasən cinayət prosesini həyata keçirən orqan cinayət qanunu ilə nəzərdə tutulmuş hərəkətlər nəticəsində vurulmuş ziyanın ödənilməsi məqsədi ilə tədbirlər görməlidir.

CPM-in 185-ci maddəsinə əsasən cinayət mühakimə icraatı zamanı təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə mülki iddiaçının, yaxud onun nümayəndəsinin vəsatəti və ya öz təşəbbüsü ilə verilmiş, yaxud gələcəkdə qaldırıla bilən mülki iddianın təmin edilməsi üçün tədbirlər görməlidir.

CPM-in 249.2-ci maddəsinə əsasən əmlak üzərinə həbs bir qayda olaraq, məhkəmənin qərarı əsasında qoyulur, lakin həmin Məcəllənin 249.5-ci maddəsində təsbit edilmiş təxirə salına bilinməyən hallarda müstəntiq məhkəmənin qərarı olmadan əmlak üzərinə həbs qoya bilər.

CPM-in 249.3.6-cı maddəsi əmlak üzərinə həbs qoyulması barədə istər məhkəmə tərəfindən, istərsə də müstəntiq tərəfindən (sonuncu hala münasibətdə CPM-in 249.6-cı

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/XBLZkn5bsxGl9BXbiCdaTpXh3oHiRsvg%2FsIvDxZYJJo%3D

maddəsi ilə birlikdə götürülməklə) qəbul edilmiş qərarda əmlak üzərinə qoyulan həbs müddətinin göstərilməsini tələb edir.

Bu müddəa təfsir edilərkən əmlak üzərinə həbs qoyulmasının hüquqi təbiəti, yəni onun müstəqil xarakter daşımadığı və müstəsna olaraq verilmiş və ya gələcəkdə verilə biləcək mülki iddianı, habelə xüsusi müsadirəni təmin edən prosessual vasitə olduğu nəzərdən qaçırılmamalıdır.

Təminat vasitəsi olmaq dedikdə isə sadəcə mülki iddia və ya xüsusi müsadirə barədə məsələyə mahiyyəti üzrə baxılması və onların həllinə dair qərarın çıxarılması üçün zəruri şəraiti yaratmaq (qərar çıxarıldığı an üçün əmlakın mövcudluğunu təmin etmək) deyil, mülki iddianın təmin edilməsi və ya xüsusi müsadirənin tətbiq edilməsi barədə məhkəmə hökmünün (digər yekun qərarın) faktiki icrası, yəni məhkəmə aktının mülki iddiaya və xüsusi müsadirəyə dair müddəalarının reallıqda (qanuni qüvvəyə minmiş məhkəmə aktının icrası mərhələsində) həyata keçirilməsi başa düşülür.

Əmlak üzərinə həbsin qoyulmasından ibarət olan prosessual tədbirin yalnız xüsusi müsadirənin tətbiq edilməsi və ya mülki iddianın təmin edilməsi barədə məhkəmə hökmünün çıxarıldığı tarixədək olan dövrə deyil, hökmün çıxarıldığı tarixdən sonrakı dövrə də yönələn tədbir olması məhkəmə hökmündə mülki iddianın həlli üzrə məsələləri tənzimləyən CPM-in 354-cü maddəsinin müddəalarından da aydın görünür.

Belə ki, CPM-in 354.2-ci maddəsinə əsasən mülki iddia təmin edildiyi halda hökm qanuni qüvvəyə minənədək iddianın təmin edilməsi üzrə tədbirlər görülməmişdirsə, məhkəmə həmin tədbirləri görmək hüququna malikdir.

Qeyd olunanlar əmlak üzərinə həbs qoyulması barədə məhkəmənin və ya müstəntiqin qərarının nə vaxta qədər öz əhəmiyyətini saxladığını göstərməklə bərabər həbsin hansı dövrü əhatə etməli, yəni hansı müddətə tətbiq edilməli olduğunu da şərtləndirir.

Əslində əmlak üzərinə həbs qoyulmasının hüquqi təbiətindən çıxış etdikdə əmlak üzərinə qoyulan həbsin müddəti həbsin qoyulması barədə məhkəmənin və ya müstəntiqin qərarı çıxarıldığı tarixdən hökmün (digər yekun qərarın) icrası mərhələsində əmlakın real olaraq xüsusi müsadirəsinin həyata keçirilməsinədək (dövlət nəfinə alınmasınadək) və ya mülki iddianın təmin olunmasına dair məhkəmə hökmü ilə əmlak barədə edilməsi nəzərdə tutulan hərəkətin icra məmuru tərəfindən yerinə yetirilməsinədək olan dövrü əhatə etməlidir.

Çünki həbs qətimkan tədbirinin tənzimləmə mexanizmindən fərqli olaraq, cinayət-prosessual qanunda əmlak üzərinə qoyulan həbs müddətlərini konkret müəyyən edən və ya əmlak üzərinə qoyulan həbs müddətlərinin uzadılması hallarını və əsaslarını təsbit edən normalar nəzərdə tutulmamışdır.

Bu da şəxsin həbs edilməsi ilə əmlak üzərinə həbsin qoyulması arasındakı fundamental fərqlərdən, o cümlədən şəxs həbs edildikdən sonra onun vəziyyətinin bütöv icraat boyunca dəyişməz olaraq qalmamasından (həbsi zəruri etmiş prosessual əsasların

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/XBLZkn5bsxGl9BXbiCdaTpXh3oHiRsvg%2FslvDxZYJJo%3D

zaman keçdikcə özünün əvvəlki əhəmiyyətini itirməsindən), əmlak üzərinə həbs qoyulduqda isə (həbsin vaxtından əvvəl ləğvi və ya götürülməsi üçün əsaslar olmayıbsa) həbsin qoyulmasını zəruri etmiş əsasların xüsusi müsadirə və mülki iddia ilə bağlı məsələlər həll olunanadək öz əhəmiyyətini qoruyub saxlamasından (dəyişməz olaraq qalmasından) irəli gəlir.

Nəzərə alınmalıdır ki, mülki iddia CPM-in 187-ci maddəsinə və digər əlaqəli normalarına əsasən, xüsusi müsadirənin tətbiqi isə CM-in 99-1-ci və 132-ci maddələrinə, habelə digər əlaqəli normalarına əsasən cinayət işinə mahiyyəti üzrə baxan məhkəmə tərəfindən yekun qərarda (mülki iddiaya münasibətdə hökmdə) həll edilir. Müvafiq olaraq, xüsusi müsadirənin və ya mülki iddianın təmin tədbiri kimi əmlak üzərinə qoyulmuş həbsin müqəddəratı da həmin məsələlər üzrə məhkəmənin yekun qənaətindən asılı olaraq yalnız məhkəmə tərəfindən həll olunur.

CPM-in 254.1-ci maddəsinə əsasən əmlak üzərinə məhkəmə tərəfindən qoyulmuş həbs müstəntiqin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorla razılaşdırılmış qərarı ilə yalnız cinayət işi üzrə məhkəməyədək icraat zamanı mülki iddiadan imtina edildikdə və ya cinayət təqibinə xitam verildikdə ləğv edilir.

Belə olan halda, yəni cinayət-prosessual qanunvericilikdə əmlak üzərinə həbsin qoyulması ilə bağlı konkret müddətlər müəyyən edilmədiyi, o cümlədən müddətlərin uzadılması imkanları və əsasları nəzərdə tutulmadığı, CPM-in 254.1-ci maddəsində göstərilən xüsusi hal istisna olmaqla mülki iddianın və ya xüsusi müsadirənin təmin tədbiri kimi əmlak üzərinə qoyulmuş həbsin müqəddəratının məhkəmə tərəfindən mülki iddia və xüsusi müsadirə üzrə məsələlərin həllindən asılı olaraq məhkəmə baxışında həll olunması təsbit edildiyi üçün əmlak üzərinə həbs qoyulması müddətinin konkret (məsələn, 1 ay, 3 ay, 6 ay və sair bu kimi) rəqəmlərlə ifadə olunan müddətlə məhdudlaşdırılması, habelə qanunla müəyyən edilmiş və ya faktiki qalmış ibtidai istintaq müddətləri ilə əlaqələndirilməsi xüsusi müsadirəyə və ya mülki iddiaya dair yekun məhkəmə qərarının çıxarılacağı (və ya qüvvəyə minib icra ediləcəyi) tarixi və buna qədər sürən müddəti öncədən müəyyən etmək mümkün olmadığından düzgün yanaşma sayıla bilməz.

Bununla belə, yəni əmlak üzərinə qoyulmuş həbs hökmün (digər yekun qərarın) icrası mərhələsində xüsusi müsadirə və mülki iddia barədə hökmün (digər yekun qərarın) müvafiq göstərişləri icra edilənədək öz əhəmiyyətini saxlamasına baxmayaraq, cinayət işinə mahiyyəti üzrə baxan məhkəmənin xüsusi müsadirə və mülki iddia məsələləri ilə bağlı hökmünün (digər yekun qərarın) hansı məzmunda olacağını əvvəlcədən müəyyən etmək mümkün olmadığından əmlakın üzərinə həbs qoyulması barədə qərar verən məhkəmə və ya müstəntiq də hökmün mütləq şəkildə xüsusi müsadirənin tətbiqi və ya mülki iddianın təmini barədə olacağından çıxış edə və həbs müddətini xüsusi müsadirənin tətbiqi və ya mülki iddianın təmin edilməsi barədə məhkəmə qərarının qanuni qüvvəyə minməsi, yəni icra edilməsi anınadək müəyyən edə bilməz. Cinayət-prosessual qanunvericiliyin məhkəmənin müstəqilliyini müəyyən edən prinsipləri onu tələb edir ki,

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/XBLZkn5bsxGl9BXbiCdaTpXh3oHiRsvg%2FslvDxZYJJo%3D

əmlak üzərinə həbs qoyulması barədə ayrıca qərar qəbul edən məhkəmə və ya müstəntiq məhkəmə hökmünün (digər yekun qərarının) mütləq şəkildə xüsusi müsadirəni tətbiq edən və ya mülki iddianı təmin edən məzmunda olacağından deyil, məhkəmənin bu məsələlərə baxıb onları həll edəcəyindən, müvafiq olaraq da əmlak üzərinə həbsin qoyulduğu müddəti müəyyən edərkən hökmün (digər yekun qərarın) qanuni qüvvəyə minəcəyi (icra ediləcəyi) tarixdən deyil, xüsusi müsadirə və mülki iddia üzrə məsələləri həll edən hökmün (digər yekun qərarın) çıxarılacağı tarixdən çıxış etsin.

Beləliklə, CPM-in 249.3.6-cı maddəsində məhkəmənin və ya müstəntiqin qərarında əmlak üzərinə qoyulan həbs müddətinin göstərilməsini nəzərdə tutan norma konkret təqvim müddətini (3 ay, 5 ay, qanunla müəyyən edilmiş istintaq müddəti, istifadə olunmamış istintaq müddəti və sair şəkildə) deyil, xüsusi müsadirəyə və mülki iddiaya dair məsələləri həll edən məhkəmə baxışının, yəni hüquqi hadisənin baş verdiyi anadək davam edən zamanı ehtiva edən müddəa kimi təfsir olunmalı, əmlak üzərinə həbsin qoyulması barədə məsələyə ayrıca baxan məhkəmə və ya müstəntiq bundan çıxış etməli və qərarlarında əmlak üzərinə qoyulan həbs müddətini xüsusi müsadirə və ya mülki iddia üzrə məsələlərə məhkəmə tərəfindən baxıldığı (bu məsələlərin həll olunduğu) vaxtadək sürən zaman həddində müəyyən etməlidirlər.

Bu o demək deyil ki, əmlak üzərinə həbsin qoyulması barədə qərarda həbsin müddəti bu cür müəyyən olunduqda xüsusi müsadirə və ya mülki iddianın təmin edilməsi barədə məhkəmənin yekun qərarı çıxarıldıqdan sonra bu qərarın real icrasına qədər olan anadək bunu (icranı) təmin etməli olan əmlaklar artıq həbsin qoyulması barədə qərarın hüquqi qüvvəsinin təsiri altında olmayacaqlar.

Çünki cinayət-prosessual qanun məhkəmədə cinayət işinə mahiyyəti üzrə baxılması nəticəsində xüsusi müsadirənin tətbiq edilib-edilməməsindən və ya mülki iddianın təmin edilib-edilməməsindən asılı olaraq, yəni əmlakın xüsusi müsadirəsinə və ya mülki iddianın təmin edilməsinə dair qərar verildikdə onların təmin tədbiri kimi ayrıca məhkəmə qərarı və ya müstəntiqin qərarı ilə qoyulmuş həbsin hökm qanuni qüvvəyə minənədək, başqa sözlə icra olunanadək dəyişdirilmədən saxlanılması barədə, xüsusi müsadirənin tətbiq olunmasından və ya mülki iddianın təmin edilməsindən imtina edildikdə isə üzərinə həbs qoyulmuş əmlakın həbsdən azad edilməsi barədə qərarın da hökmdə (digər yekun qərarda) göstərilməsini tələb edir.

Belə ki, CPM-in 346.1.18-ci maddəsində məhkəmənin hökmün (digər yekun qərarın) çıxarılması ilə əlaqədar məhkəmə baxışının nəticələrinə dair müşavirə otağında həmin maddədə müəyyən olunmuş ardıcıllıqla müzakirə etməli olduğu məsələlər sırasında "cinayət nəticəsində vurulmuş maddi zərərin və ya mümkün ola biləcək xüsusi müsadirənin təmin edilməsi məqsədi ilə əmlak üzərinə qoyulmuş həbsin ləğv edilməli olub-olmadığı" məsələsi də xüsusilə qeyd edilmişdir.

Məhkəmənin yekun qərarının çıxarılması qaydasını təsbit edən CPM-in 347.3-cü maddəsində isə nəzərdə tutulmuşdur ki, müzakirə edilən (CPM-in 346.1-ci maddəsində

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/XBLZkn5bsxGl9BXbiCdaTpXh3oHiRsvg%2FslvDxZYJJo%3D

sadalanan) hər bir məsələ üzrə qəti qərar qəbul edilməlidir, yəni əmlak üzərinə qoyulmuş həbsin ləğv edilməli olub-olmadığı barədə qəbul olunmuş qərar da məhkəmənin yekun qərarında əks etdirilməlidir.

Məhkəmənin ittiham hökmünün nəticəvi hissəsində mülki iddiaya və xüsusi müsadirənin tətbiqi məsələsinə dair qərarların göstərilməsini tələb edən CPM-in 353.4.10 və 353.4.11-ci maddələri də bu məsələlərlə ayrılmaz surətdə bağlı olan prosessual təminat tədbirinin (əmlak üzərinə qoyulmuş həbsin) müqəddəratına dair qərarın ittiham hökmünün nəticəvi hissəsində göstərilməli olduğunu ehtiva edir.

Bəraət hökmünün nəticəvi hissəsində məhkəmə hökmü çıxarılanadək mülki iddianın və ya mümkün ola biləcək xüsusi müsadirənin təmin edilməsi üzrə tədbirlər görüldükdə görülmüş tədbirlərin ləğv edilməsi barədə qərarın əks etdirilməli olduğunu isə CPM-in 353.5.3-cü maddəsi birbaşa nəzərdə tutmuşdur.

Beləliklə, hökmdə (digər yekun qərarda) əmlakın xüsusi müsadirə olunması və ya hökmdə mülki iddianın təmin edilməsi barədə qərar qəbul edildikdə həmin məhkəmə aktlarının nəticəvi hissəsində xüsusi müsadirənin və ya mülki iddianın təmin tədbiri kimi müvafiq əmlak üzərinə ayrıca məhkəmə qərarı və ya müstəntiqin qərarı ilə qoyulmuş həbsin hökm qanuni qüvvəyə minənədək (yəni icra olunanadək) dəyişdirilmədən saxlanılması barədə qərar əks etdirilməlidir. Belə qərar qəbul edildiyi üçün hökmün həmin müddəası ilə birlikdə götürülməklə əmlak üzərinə həbsin qoyulması barədə qərarla (onun hüquqi qüvvəsi ilə) hökmün real icrasınadək olan dövr də əhatə edilmiş olur.

**2.** Məhkəmə hökmünün (digər yekun qərarının) əmlakın xüsusi müsadirə edilməsi və ya məhkəmə hökmünün mülki iddianın təmin edilməsi hissəsində icra olunması ilə əlaqədar əmlak xüsusi müsadirə edildikdən və ya hərracda satılıb pulu zərərçəkmiş şəxsə ödənildikdən sonra əmlak üzərinə qoyulmuş həbsin ləğv edilməsi, əmlak üzərindən həbsin götürülməsi barədə ayrıca məhkəmə qərarının çıxarılmasına zərurətin olub-olmaması barədə hüquqi məsələyə gəldikdə isə bu məsələ əmlak üzərinə həbsin hansı məqsədlə qoyulduğu, yəni onun prosessual təminat tədbiri kimi hüquqi təbiəti nəzərə alınmaqla həll olunmalıdır.

Bunlar nəzərə alındıqda isə məhkəmənin hökmü (digər yekun qərarı) ilə xüsusi müsadirənin tətbiq edilməsinə və ya mülki iddianın təmin edilməsinə dair əmlaka münasibətdə müəyyən olunmuş hərəkətlər icra məmuru tərəfindən real olaraq həyata keçirildikdən, yəni üzərinə həbs qoyulmuş əmlak dövlət nəfinə verildikdən və ya hərracda satılıb əldə olunmuş vəsait mülki iddia üzrə tələbkara ödənildikdən, başqa sözlə prosessual təminat tədbiri özünün məqsədindən irəli gələn rolunu sonadək yerinə yetirdikdən sonra onun tətbiqinə dair məhkəmə qərarı öz hüquqi əhəmiyyətini itirmiş akt kimi nəzərdən keçirilməlidir.

Çünki xüsusi müsadirənin tətbiqi və ya mülki iddianın təmin edilməsi barədə məhkəmə hökmünün (digər yekun qərarının) icrası məqsədinə xidmət edən qərar olaraq onun əhəmiyyəti (hüquqi qüvvəsi) üzərinə həbs qoyulmuş əmlak barədə xüsusi

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/XBLZkn5bsxGl9BXbiCdaTpXh3oHiRsvg%2FsIvDxZYJJo%3D

müsadirənin tətbiqinə və ya mülki iddianın təmin edilməsinə dair məhkəmə hökmündən (digər yekun qərarından) irəli gələn hərəkətin icra olunması anı ilə şərtləndirilmişdir. Belə şərtin realizə edilməsi isə avtomatik olaraq - hər hansı əlavə qərar tələb olunmadan sözügedən qərarın hüquqi qüvvəsinin itirilməsi ilə nəticələnir.

Hüquqi qüvvədə olma müddəti müəyyən halın baş verməsi vaxtı (şərh edilən məsələdə xüsusi müsadirənin tətbiq edilməsi və ya mülki iddianın təmin edilməsi barədə məhkəmənin yekun qərarının icrası anı) ilə şərtləndirilmiş, yəni özündə qüvvədə olma müddətini nəzərdə tutan qərarın həmin şərt meydana gəldikdən, beləliklə də, onun hüquq münasibətlərinə təsiri tamamilə aradan qalxdıqdan sonra ləğv edilməsi nə hüquqi müəyyənlik prinsipi, nə də ki cinayət-prosessual qanunun müddəaları ilə uzlaşır.

Belə ki, CPM-in hökmün və məhkəmənin digər yekun qərarının icrası qaydasında icraata dair məsələlərin tənzimlənməsinə həsr olunmuş LVIII fəslinin heç bir norması sözügedən məsələlər üzrə qərara artıq əmlak xüsusi müsadirə olunub dövlət nəfinə verildikdən və yaxud hökmün mülki iddiaya dair hissəsinə uyğun olaraq hərracda satılıb mülki iddiaçının tələbinin ödənilməsinə yönəldildikdən sonra əmlak üzərinə qoyulmuş həbsin ləğv edilməsini və ya əmlakın həbsdən azad edilməsinə dair qərarın çıxarılmasını nəzərdə tutmur.

Çünki yuxarıda qeyd olunduğu kimi, belə qərar çıxarıldığı halda o, artıq həbsdə olmayan (əmlak dövlət nəfinə verildiyi və yaxud hərracda satılıb başqa şəxsin mülkiyyətinə çevrildiyi üçün tamamilə fərqli rejim altında olan) əmlakın həbsdən azad edilməsini, yəni real vəziyyətlə və hüquqla bir araya sığmayan göstərişi nəzərdə tutmuş olardı.

Odur ki, xüsusi müsadirənin tətbiqi və ya mülki iddianın təmin edilməsi barədə yekun məhkəmə qərarının icrası ilə əlaqədar artıq müqəddəratı həll olunmuş (əvvəl xüsusi müsadirənin və ya mülki iddianın təmin tədbiri qismində üzərinə həbs qoyulmuş) əmlakın həbsdən azad olunması tələbi ilə məhkəmələrə müraciət olunmamalı, belə müraciət daxil olduqda isə məhkəmə tərəfindən səlahiyyətləri daxilində işlərə və digər materiallara baxılmalı olmasını müəyyən edən cinayət mühakimə icraatının ümumi prinsiplərinə, o cümlədən CPM-in 23.1-ci maddəsinə və digər əlaqəli normalarına əsaslanmaqla müraciətin məhkəmənin icraatına qəbul edilməsindən, yəni ona mahiyyəti üzrə baxılmasından imtina olunması haqqında qərar qəbul edilməlidir.

**Cinayət kollegiyasının sədri** **Hafiz Nəsibov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/XBLZkn5bsxGl9BXbiCdaTpXh3oHiRsvg%2FsIvDxZYJJo%3D